# Bütün zamanların şairi

**Fikrət Qoca - 90**

**Ədəbiyyatımızda, poeziyamızda öz dəst-xəti ilə seçilən və sevilən Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Qocanın 90 yaşı tamam olur. XX əsrin 60-cı illərində Azərbaycan poeziyasına yeni ovqat gətirmiş yenilikçi kimi tanınan şair Fikrət Qoca qələmə aldığı şeir və poemaları ilə oxucu sevgisi qazanmışdır. Sözlərinə onlarla mahnılar bəstələnmişdir.**

Yaradıcılığı, bir-birindən dəyərli əsərləri ilə dövlətinə, xalqına xidmət etmiş görkəmli şair Fikrət Qoca həmişə ehtiramla anılır. Prezident İlham Əliyev Azərbaycan ədəbiyyatının inkişafındakı misilsiz xidmətlərini nəzərə alaraq Xalq şairi Fikrət Qocanın 90 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə 8 may 2025-ci ildə sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Fikrət Qoca milli şeir ənənələrindən və dünya bədii fikrinin nailiyyətlərindən uğurla bəhrələnərək orijinal dəst-xətini formalaşdırmış söz ustalarındandır. Novator şair kimi o, fəal vətəndaşlıq mövqeyinin ifadəsi olan, dərin humanist məzmuna malik əsərləri ilə ötən əsrin 60-cı illərində Azərbaycan poeziyasına yeni ovqat gətirmişdir. Sənətkarın həyat və zaman haqqında lirik-fəlsəfi ümumiləşdirmələrlə zəngin yaradıcılığında müasir insanın mənəvi-əxlaqi kamillik axtarışları özünün dolğun poetik əksini tapmışdır. Fikrət Qoca ədəbi fəaliyyəti boyunca yüksək ictimai amala sadiq qalmış, doğma xalqının azadlıq ideallarının tərənnümünü daim diqqətdə saxlamış, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işinə öz töhfəsini vermişdir".

Xalq şairi Fikrət Qoca 1935-ci il avqustun 25-də Ağdaş rayonunun Kotanarx kəndində dünyaya göz açıb. Şairin əsərləri 1956-cı ildən mətbuat səhifələrində dərc edilib. Elə ilk qələm nümunələrindən oxucuların diqqətini özünə cəlb edib. Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında fəaliyyət göstərmiş, Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr üzrə məsul katibi işləyib. 1987-ci ildən isə "Qobustan" incəsənət toplusunun baş redaktoru, 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin birinci katibi kimi fəaliyyət göstərib. Ədəbiyyatşünasların qeyd etdiyi kimi, şair Azərbaycan ədəbi mühitinə yeni ab-hava gətirmiş, ictimai məzmunlu yaradıcılığı ilə müasir poeziyamızın mövzu dairəsini xeyli genişləndirmişdir.

Yardıcılığına görə, müxtəlif illərdə bir sıra dövlət mükafatları, ordenlərlə təltif edilmişdir. 1968-ci ildə Azərbaycan SSR Lenin komsomolu mükafatına layiq görülmüşdür. "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adını isə 1979-cu ildə almışdır. Şairə 1995-ci ildə "Şöhrət" ordeni verilmişdir. 1998-ci ildə isə "Azərbaycan Respublikasının xalq şairi" fəxri adına layiq görülmüşdür. Fikrət Qoca 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur. Bunlardan başqa, şair Azərbaycan ədəbiyyatına verdiyi töhfələrə görə, 2015-ci ildə "Şərəf", 2020-ci ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir. Fikrət Qoca 2016-cı ildə Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüşdür.

Azərbaycan poeziyasının istedadlı nümayəndəsi olan Fikrət Qoca təkcə yazdığı şeir və poemaları ilə deyil, şəxsi nümunəsi ilə özündən sonra gələn ədəbi nəsillərə örnək olmuşdur. 1964-cü ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirən şairin yaradıcılığında yeni mərhələ başlamışdır. Yazdığı bütün şeirlərdə vətən məhəbbəti, torpağa, yurda sevgi tərənnüm olunmuşdur. Şairin insan və zaman haqqında düşüncələri də oxucunu elə ilk misralarından sehirləmişdir.

Fikrət Qoca müxtəlif illərdə dünyanın bir çox ölkələrində yaradıcılıq səfərlərində olmuşdur. Həmin ölkələrdə gedən milli azadlıq mübarizəsinə, bu mübarizənin öncül liderlərinə şeirlər, poemalar həsr etmişdir. Kubanın azadlıq mübarizi Ernesto Çe Gevara ("Ünvansız məktublar"), Qvineya-Bisaunun azadlıq hərəkatı xadimi Amilkar Kabral ("Amilkar Kabral"), Filippinin Milli Qəhrəmanı Xose Risal ("Xose Risal"), vyetnamlı gənc Li Vi Tom ("Li Vi Tom") haqqında poemalar qələmə almışdır. Şair 1990-cı illərdə yazdığı "Oddan keçənlər", "İnsan səviyyəsi", "Adi həqiqətlər" poemalarında Azərbaycanda gedən azadlıq mübarizəsindən bəhs etmişdir. Şairin "Ölüm ayrılıq deyil", "Hələlik, - qiyamətədək" povestlərində 1990-cı ilin 20 Yanvar hadisələri bədii əksini tapmışdır.

Fikrət Qocanın ana haqqında yazdığı şeiri hər bir azərbaycanlının dilinin əzbəridir, ürəyinin çırpıntısıdır, qəlbinin döyüntüsüdür. Anaları vəsf edən şair yazır:

*Əziz anam, şirinsözlü anam,*
*Qəlbin kövrək, eşqin solmaz bahar,*
*Gülərüzlü, qaragözlü anam.*
*Hara getsəm, gözün mənə baxar.*

Fikrət Qocanın yaradıcılığının əsas mövzularından biri də gözəlliyi ilə ürəkləri, qəlbləri fəth edən Xəzər dənizidir. "Dənizdə ay çiməndə", "Balıqçıyam", "Xəzər", "Dənizdə susuz" və digər şeirlərində mirvarigözlü Xəzər vəsf olunur. Şairin poeziyasında əsas yerlərdən birini insan faktoru ilə yanaşı, təbiət, onun gözəllikləri də tutur. Şeirlərdəki təbiət təsvirləri oxucuların zövqünü oxşayır. Oxuduqca hiss edirsən ki, Fikrət Qocanın poeziyası həyatın və təbiətin özüdür. Onun bütün poetik yaradıcılığı insana, həyata və sənətə sevgidən yoğrulub. Yaradıcılığının əsasında dayanan yeni fikir, yeni ahəng uğrunda apardığı mübarizə diqqəti cəlb edir. Şair daim bədii axtarışlarda olub. Bu da bir-birindən maraqlı və dəyərli əsərlərin yaranması ilə nəticələnib.

Şair sevə-sevə baxdığımız filmlərdə musiqi sözlərinin müəllifidir. Bəstəkar Tofiq Quliyev ilə Fikrət Qocanın birgə çalışdığı "Qayınana" filmində səslənən musiqilər bu gün də Azərbaycan tamaşaçısını ovsunlayır. Əsərləri əsasında "Uşaqlığın son gecəsi" filmlərinə yazılmış - bəstəkarı və ifaçısı Polad Bülbüloğlu olan "Gəl, ey səhər" mahnıları bu gün də öz aktuallığını qoruyub saxlayır.

Fikrət Qoca həm də çoxsaylı sevilən mahnıların müəllifidir. Bəstəkarların tez-tez müraciət etdiyi şairin "Anacan, dostum evlənir", "Könlüm", "Günay", "Gəl, ey səhər", "Çiçək tapa bilmədim", "Gecə yaman uzundur", "Payız gəldi" və başqa şeirlərinə yazılan mahnılar dillər əzbəridir.

Şairin qələmindən çıxmış "Qağayı", "Hamıya borcluyam", "Stixi", "Dənizdə ay çiməndə", "Od gəlini", "Yatmadığım gecələrdə", "Günlərin bir günü", "Gül ömrü", "İnsan xasiyyəti", "Ömürdən səhifələr", "Mavi dünyanın adamları", "Taleyin ağır taleyi", "Seçilmiş əsərləri", "Eldən-elə - dildən-dilə", "Sükutun səsi" kitabları bu gün də oxucular tərəfindən sevilə-sevilə oxunur.

Fikrət Qocanın ədəbiyyata, poeziyaya gətirdiyi yenilik Xalq şairi Rəsul Rzanın da diqqətindən qaçmamışdır. Onun Fikrət Qoca haqqında yazdıqlarını oxuyanda bunu aydın şəkildə görürük: "Fikrət Qocanın şeirlərində məni sevindirən qüvvətli yenilik hissidir. Onun şeirlərində mədəni bir şairin, ürəyi sözlə dolu bir insanın nəyə isə məhəbbət, nəyə isə nifrət aşılamaq istəyən bir şairin səsini eşidirik".

Xalq yazıçısı Anar Fikrət Qoca yaradıcılığından bəhs edərək yazır: "Dünya ölkələrindəki minlərlə oxucu da Fikrət Qocanı böyük istedad sahibi, gözəl şair kimi sevir. Fikrəti yaxından tanıyanlar, o sıradan da mən, onu yalnız bənzərsiz sənətkar, dillər əzbəri olmuş şeirlərin müəllifi kimi deyil, həm də nadir bir insan kimi qiymətləndiririk, özü bütöv, sözü bütöv, alicənab və gözütox şəxsiyyət kimi, etibarlı dost kimi sevirik".

Xalq şairi Qabil dostu haqqında yazmışdır: "Deyirlər ki, Fikrət Qoca poeziyası intellektual poeziyadır. Mən də bu fikirlə şərikəm. Bəs, onda, o hansı şairdir ki, şeirlərinə, əsərlərinə ağılın, kamalın ziyası süzülməsin? Fikrət Qocanın şeirləri ritorikadan, şüarçılıqdan, qoşmaçılıqdan (klassik qoşmanın dəxli yoxdur), uzaq, sözün, fikrin, hadisənin, təsvirin mahiyyətinə varan poeziyadır".



Yaradıcılığı boyu Fikrət Qoca heç vaxt mövzu sarıdan korluq çəkməyib. Şair hər şeydən yazıb: atadan, anadan, övlad məhəbbətindən, onu sevindirən kiçik bir uğurdan, bir qələbədən, ürəyinə dəyən bir sözdən, öz kəndindən - o kəndin suyundan, çinarından, arxından, qarış-qarış gəzdiyi Azərbaycanın bölgələrindən, tanıdığı və dostluq etdiyi adamlardan, sevgidən, məhəbbətdən, insan ülfətindən, gəzdiyi, səfərdə olduğu ölkələrdən, tariximizin şanlı və qaranlıq səhifələrindən, ilin fəsillərindən və s. yazıb. Fikrət Qoca elə ilk şeirlərindən son şeirlərinədək heç bir şairə oxşamamağa çalışdı. Özünün bənzərsiz fərdi dəst-xətini yaratdı. Elə buna görə də seçilməyə, fərqlənməyə başladı, sevildi və oxundu.

Şairin Qarabağ uğrunda şəhid olmuş, əsirlikdə olan 25 nəfər xocalılının azad olunması əvəzində düşmənə könüllü təslim olmuş Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımova həsr etdiyi "Bayraq tutan oğullara" şeiri də vətənpərvərlik duyğularından yoğrulub:

*Şəkildə baxan o gözlər*
*Elə sözdü, elə səsdi.*
*Əlindəki bayraq kimi*
*Müqəddəsdi*
*Əbədiyyət qazanmağa*
*Bu da bəsdi!*
*Yenilməzlik, haqlıq, düzlük*
*Elə budu!*

*Sən əsir düşmədin belə,*
*Əlindəki bayraq ilə!*
*Xankəndini tapdaladın,*
*Qisas aldın!*
*Azərbaycan bayrağıyla*
*Keçdin ordan!*
*Zəfər çaldın!*
*İnsanlıqdan ucalmısan,*
*Sən müqəddəs bir ocaqsan!*
*Elə orda, Xankəndində*
*Nəhəng heykəl olacaqsan,*
*Əlində də öz bayrağın!!!*
*Bayrağının altından da*
*İllər, nəsillər keçəcək*
*Zaman-zaman, axın-axın,*
*Sən oğulsan!..*
*Gözlərinə qurban olum!*
*Bu günə də şükür olsun!*
*Çox şükür ki,*
*Bayraq da var,*
*Bayraq tutan oğullar da!*

Fikrət Qocanın yaradıcılığı sönməyən bir ocaqdır, qurumayan bir bulaqdır, daim coşub-daşan bir çaydır. İnanırıq ki, şairin qələmə aldığı şeir və poemalar bütün zamanlarda ədəbi ictimaiyyətin diqqət mərkəzində olacaq. Vətənpərvərlik duyğuları ilə dolub-daşan əsərləri həmişə ürəkləri və qəlbləri fəth edəcək. Buna görə də Fikrət Qoca bütün zamanların şairi olaraq ədəbiyyatımızda qalacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 31 avqust (№184).- S.7.